# Könlünün qapı-pəncərəsini insanların üzünə açan nurlu insan

**Könlünün qapısını, pəncərəsini bağlı saxlayıb heç kəsə baxmayan, heç kimi o qapıdan, pəncərədən içəri buraxmayan o qədər adamlar var ki... Amma nə xoş ki, evinin-eşiyinin, ən əsası da könlünün qapı-pəncərəsini insanların üzünə açan, dünya evinin pəncərəsindən hər kəsin üzünə şəfqətlə, mərhəmətlə baxan nur üzlü insanlar da var. Dünya da elə bu insanlara görə yaşamını davam etdirir, insanlar da bu cür insanlara görə yaşamaq istəyir bu gəlimli-gedimli dünyada.**

Azərbaycanın görkəmli ziyalısı, Miskin Abdal, Ağdabanlı Şair Qurban ocağının yetirməsi, ustadlar ustadı Dədə Şəmşirin yadigarı, bu günlərdə şərəflə yaşadığı ömrünün səksən beşinci aşırımına qədəm qoyanQənbər Şəmşiroğlu belə nur üzlü insanlardandır. Böyük bir elin ağsaqqalı, yol göstərəni olan Qənbər Şəmşiroğlu ömrün səksən beşində də gənclik həvəsi, gənclik ruhu ilə yazıb-yaradır, ictimai fəaliyyətini davam etdirir. Qənbər Şəmşiroğlu öz ziyalılığı, xalqına, Vətəninə bağlılığı, dövlətçiliyə sədaqəti ilə bu gün çoxları üçün bir nümunədir.

Qənbər Şəmşiroğlu ömrün bu məqamına tanınmış şair, yazıçı, publisist kimi gəlib. O, istər bir şair kimi şeirləri, istər bir nasir kimi roman, povest və hekayələri, istərsə də publisist kimi oxunaqlı məqalələri ilə usta qələm sahibi kimi adını ədəbiyyat tariximizə həkk eləyib.Miskin Abdalın, Ağdabanlı şair Qurbanın bulağından, Ustad Dədə Şəmşirin əlindən su içmiş, şeir-sənət məbədində böyümüş bir insanın ömrünü şeirə, sözə verməsi əslində, çox təbiidir. Qənbər Şəmşiroğlu şeir yazmaqla mənsub olduğu ünvana bağlılığını, sadiqliyini uca səslə - poeziyanın dili ilə bəyan edir. Aşağıdakı misralar onun soy-kökünə, tarixin o başından, yüzilliklərin dərinliklərindən yön alıb gəldiyi ünvanına bağlılığın poetik ifadəsidir:

**Ulu babam Miskin Abdal,**
**Qurban böyük dərya-kamal,**
**”Şəmşiroğlu” - deyib hər hal:**
**Ünvanımı gəzdirirəm!**
**Ünvanımı gəzdirirəm.**

Qənbər Şəmşiroğlu sənətkarlar nəslinə mənsub olub, ustad ailəsində doğulmaqla yanaşı, Kəlbəcər kimi şeir-sənət məbədi olan bir məmləkətdə dünyaya gəlib və bu əzəmətli dağlarda, quşqonmaz zirvələrdə, Səməd Vurğunun vəsf etdiyi”kəklikli daşların”cazibəsində şair olmamaq, şeir yazmamaq mümkün deyil. Doğulduğu, boya-başa çatdığı mühitin, eləcə də təbiətin yaradıcı insana təsiri şəksizdir və bu mənada Qənbər Şəmşiroğlunu da nəsil şəcərəsindən gələn ilahi təb,Dədə Şəmşirdənaldığı ustad dərsləri ilə yanaşı, Dədə Ələsgərin dediyi kimi,”xeyri də, şəri də yaxşı olan”Kəlbəcər mühiti və əsrarəngiz Kəlbəcər təbiəti şair etmişdir. Qənbər müəllim özü də bunu şeirlərində ustalıqla ifadə edir:

**Bizə şair deməsinlər,**
**Kəlbəcər özü şairdi.**
**Sərt qayası, uca dağı,**
**Dərəsi, düzü şairdi.**

Qənbər Şəmşiroğlu yaradıcılığını mənsub olduğu nəslin, doğulduğu ailənin və eləcə də böyüdüyü mühitin ənənələrindən fərqləndirən bir cəhət də var. Bu ailədə, bu mühitdə çoxları şeir yazır, amma o, hamıdan fərqli olaraq həm də nəsr əsərləri - roman, povest və hekayələr də yazır. Müəllifin”Tale oxşarlığı” kitabında yer almış ”Bir gözəlin taleyi”, ”Adam kimi ölməyib”, ”Bütövləşmək istədim”, ”Qızlardan muğayat olun”povestləri və hekayə janrında qələmə aldığı əsərləri özünün orijinal təhkiyə üsulu, zəngin obrazlar sistemi və canlı xalq dilinin, xalq həyatının ədəbiyyata gətirilməsi baxımından olduqca maraqlıdır. Ümumiyyətlə, onun əsərləri kəlbəcərlilərin həyat tərzini, folklorunu, Kəlbəcər tarixinin böyük bir dövrünün salnaməsini özündə əks etdirir. Kəlbəcər onun həyat tərzi, içdiyi su, udduğu havadır. Elə təsadüfi deyil ki,Qənbər Şəmşiroğlu publisistik üslubda yazdığı kitabını ”Kəlbəcər: ömrüm, həyatım”adlandırıb. Həmin kitabda Kəlbəcərin adət-ənənənələri, toponomikası, zəngin fauna və florası öz əksini tapmışdır. Bu kitab bütövlükdə Kəlbəcərin tarixini öyrənmək üçün zəngin və əvəzsiz bir mənbədir.

Qənbər Şəmşiroğlunun ən böyük mənəvi keyfiyyətlərindən biri və birincisi insanlara yaxşılıq etməsi, doğru yol göstərməsi, savab əməllərin sahibi olmasıdır. Məhz bu mənəvi keyfiyyətlərinə, özünəməxsus xarakterinə görə böyük bir el, mahal onu özünə ağsaqqal hesab edir. Azərbaycan kinematoqrafiyasının qızıl fonduna daxil olmuş ”Axırıncı aşırım” filmində Abbasqulu bəy Şadlinskinin Kərbəlayi ilə görüşmək üçün Qarabağlara gəlməsi səhnəsində maraqlı bir məqam var. Yol kənarından, evlərin doqqazından boylanan insanlar Abbasqulu bəy haqqında deyirlər: ”Həmişə dar gündə bu kişi bizim köməyimiz olub”. Kəlbəcərin xeyir-şər məclislərində insanlar bu səhnəni dəfələrlə görüblər. Kəlbəcərlilərin ağsaqqalı olan Qənbər Şəmşiroğlu hansı məclisə gəlirsə, insanlar Qənbər müəllim tərəfə boylanır və: ”Həmişə dar gündə bu kişi bizim köməyimiz olub” - sözlərini deyirlər. Əminliklə söyləmək olar ki bu, hər kəsə nəsib olmayan xoşbəxtlikdir. Və bir insanın Süleymana qalmayan dünyada əldə etdiyi ən böyük qazanc da elə budur. Ən mühümü də odur ki, Qənbər Şəmşiroğlu bütün bu yaxşılıqları təmənnasız edir. Bu əxlaq isə ona yaşadığı həyat tərzindən, mənsub olduğu soy-kökdən, atası Dədə Şəmşirdən, babası şair Qurbandan, ulu babası Miskin Abdaldan keçibdir. Qənbər müəllimdən isə bu həyat tərzini başda Cavid müəllim olmaqla bütün övladları öyrəniblər.

Səksən beş yaşını haqlayan Qənbər Şəmşiroğluna ömrünün bu müdrik çağında Ulu Tanrıdan uzun və sağlam ömür diləyirəm. 85 yaşınız mübarək, aqibətiniz xeyir olsun, əziz Qənbər müəllim!

**Ələmdar CABBARLI**
**Filologiya üzrə fəlsəfə doktoru,**
**Bakı Dövlət Universitetinin dosenti**



***Qənbər ŞƏMŞİROĞLU***

## SALAMLARIM VAR

Şahdağdan üz tutub Murova baxdım,
Bu taydan o taya salamlarım var.
Kəpəzin o üzü gözəl diyarda,
Düşmən tapdağında qalanlarım var.

Odu kirpiyində götürənlərim,
Həsrətlə köksünü ötürənlərim,
Çoxdan əzizini itirənlərim,
Ah çəkib saçını yolanlarım var.

Elin köməyilə çörəklənmişəm,
Dirçəlib, dirçəlib zirəklənmişəm,
Orduma baxaraq ürəklənmişəm,
Bilirəm qanımı alanlarım var.

Eşitdim gücünü, gördüm hünərin,
Qənbərəm, sevdiyim sərkərdələrin.
Həddini bilməyən nanəciblərin
Canına vəlvələ salanlarım var.

## GƏZDİM

Dastan məclisində, el məclisində
Söz sərrafə olan dədəmi gəzdim.
Döşəyin üstündə bardaş oturub,
Şirin dinlədiyim vədəmi gördüm.

Elə mahir idi sözdə, seçimdə,
Səhvə yol verməzdi ölçü-biçimdə,
Astaca-astaca evin içində
Atdığı mübarək qədəmi gəzdim.

Həmişə nəsihət eşitdim ondan,
Kim incik qalardı belə adamdan?!
Uyğunsuz qəbahət etdiyim zaman
Mənə eylədiyi hədəmi gəzdim.

## BİR ÖMÜR - BİR DÜNYA

***Həyat yoldaşım***
***Diləfruz Məcid qızına***

Kökün naxçıvanlı, südün cənublu,
Şəmkirdə dünyaya təşrif buyurdun.
Ananı itirdin körpəliyində,
Nənənin yanında durdun, oturdun.

Çoxu səndən abır-həya götürdü,
Qismətini tale özü yetirdi,
Allaha şükürlər bəxtin gətirdi,
Səxavətlə ac qarınlar doyurdun.

Qaynanan da Güllü, nənən də Güllü,
Səni öyrətdilər çox şirin dilli,
Hər birini sevdin özün könüllü,
Əql-kamal ilə ev-eşik qurdun.

Mahir oldun qohum-qardaş seçimdə,
Səhv etmədin bir ölçüdə, biçimdə,
Gəlinlər içində, qızlar içində
Məhəbbətlə xeyirxahlıq yoğurdun.

Eşitmədim artıq giley-güzarı,
Əzizlədin mənim kimi yazarı,
Doğru seçə bildin mərdimazarı,
Yeri gəlsə, başına kül sovurdun.

## QAĞA

***Gənclik dostum***
***Vəliyəddin İsmayılova***

Çəkilmişəm şəhərlərin qoynuna,
Hələ yaşayıram birtəhər, qağa!
Sayıram günləri, keçir birbəbir,
Durub gəzişirəm hər səhər, qağa!

Beş aydı dostları görə bilmirəm,
Zəng olur, cavab da verə bilmirəm,
Gedim hansı səmtə, yerə, bilmirəm,
Düşmüşəm obadan dərbədər, qağa!

Eyləyib könlümü dərd dəlik-dəlik,
Dözüb tablayıram, inan, hələlik,
Belə yaşayıram birtəhər, qağa!
Allaha min şükür, igidlərim var,

Çətinlik çəkməyə qoymayır onlar,
Hayana üz tutsam yanımdadırlar,
Məni nə qəm boğur, nə kədər, qağa!
Çin olsun, Qənbərin bir arzusu var,
Deyəsən: - Ay qağa, çoxdu qonaqlar!
Bizi qarşılaya yenə bulaqlar,
Qoyaq at belinə bir yəhər, qağa!

## QALDI

Mənim bu diyara qonaq gəlməyim,
Məmməd Araz demiş, bəlkəyə qaldı.
Tək bircə sətirim qalsa yadigar
Deyərdim: şükürlər, ölkəyə qaldı.

Qayıdıb enirik arana doğru,
Çiçək-gül bitirməz şorana doğru.
Qaçırıq küləklər vurana doğru,
Ümidlər yenə də kölgəyə qaldı.

Hanı, görünməyir dumanlı dağlar,
Hədər danışmağın nə mənası var.
Suyu bal şərbətli sərin bulaqlar
Qənbərin sevdiyi bölgəyə qaldı.

## OLMUŞAM

Daha əlim yetmir, dağ düşməndədir,
İsti torpaqlarda aran olmuşam.
İçmədim bu yerin axmaq suyundan,
Mən də torpaq kimi şoran olmuşam.

Ta gedə bilmirəm yurduma sarı,
Zaman əldən alıb bu ixtiyarı.
Suyunu içdiyim buz bulaqları
Qatar durnalardan soran olmuşam.

O yerdə müqəddəs çörəyim qalıb,
Qanıma bələnmiş köynəyim qalıb,
O köynək içində ürəyim qalıb,
Artıq ürəyimdə taran olmuşam.

Az qala gözümdə itib görkəmi,
Qəlbimdə yaratək bitib görkəmi.
Zirvədə hayqıran qar-boran kimi
Aranda özüm də boran olmuşam.

Tapdanıb elimin namusu, arı,
Başını qalxıza bilmir yuxarı.
O yerdə dağılan yurd-yuvaları
Qənbər, xəyalında quran olmuşam.

## BAXMIR ÜRƏK

Məndən inciyib, küsüb,
Sözümə baxmır ürək.
Nə hallara düşmüşəm,
Özümə baxmır ürək.

Yamac-yalım qalmayıb,
Xoş əhvalım qalmayıb,
Daha halım qalmayıb,
Dözümə baxmır ürək.

Danışmağa qorxuram,
İllər üçün darıxıram,
Dosta doğru baxıram,
Gözümə baxmır ürək.

## SƏN NƏSƏN

Yurd üçün, yuva üçün,
Bir bülbüləm, sən nəsən?!
El üçün, oba üçün
Şirin diləm, sən nəsən?!

Diqqət ilə baxılmağa,
Yanmağa, yaxılmağa,
Saçlara taxılmağa
Qızılgüləm, sən nəsən?!

Səfərlərə varmağa,
Qoşunu qaytarmağa,
Düşməni aparmağa
Daşqın seləm, sən nəsən?!

## MƏN QOCALMIŞAM

İyirmi il keçdi, bir də görüşdük,
Sən həmənki sənsən, mən qocalmışam.
Qəddi-qamət yerindədi büsbütün,
Yenə can alansan, mən qocalmışam.

Deyirlər ki, həsrət çəkir o, yenə,
Deyirsən ki, həsrət çəkir, mənə nə!
Çoxları səni bənzədirlər sənəmə,
Doğrudan sənəmsən, mən qocalmışam.

Nazla can almağa yüz əməlin var,
Ala gözlərin var, incə belin var.
Şirin-şirin nəğmə deyən dilin var,
Bülbültək ötənsən, mən qocalmışam.

## ÇƏKİR

***Arıçı sözü***

Çox diqqət etmişəm işlək arıya,
Görmüşəm işində nə zəhmət çəkir.
Çiçəkdən-çiçəyə qonur min kərə,
Bal toplamaq üçün əziyyət çəkir.

Neştər işə düşür, çalışır müdam,
Bu işi bacarmaz, nə etsə adam.
Cəhd edib əvvəlcə dadından dadan
Özüm hiss edirəm xoş niyyət çəkir.

Elə ki, qış ötüb yetişir sona,
Arılar göz açıb gəlirlər cana.
Özləri cəhd edib düzəldir ana,
Arılar düşməntək ədavət çəkir.

Gəzib dolaşırlar yamacı-yalı,
İşdən qayıdanda qalmayır halı,
Artıq işlətməzlər bir qaşıq balı,
Meylini ixraca qənaət çəkir.

Qonur gül üstünə, qonur çiçəyə,
Qanadlar yarpağa hey dəyə-dəyə.
Bu sirri nə var ki, arı bilməyə,
Onları şirəyə məhəbbət çəkir.

Arılar zəhməti çəkməsə əyər,
Qışda yuvasında acından ölər.
Onlarda hünəri görən tənbəllər
Yəqin öz-özünə xəcalət çəkir.

Analar əmr edir, onlar işləyir,
Həm halal qazanır, həm halal yeyir.
Heç kəsə əl açıb minnət etməyir,
Nə bir söz götürür, nə minnət çəkir.

## GƏTİR

***Qulluqçu Əfsanə xanım süfrəyə xörək gətirəndə duzu ya unudur, ya da qəsdən özü gətirmir***

Ay Əfsanə, xeyli zəhmət çəkirsən,
Xörəkləri çeşid-çeşid düz, gətir.
Bizi öyrətmisən dadlı yeməyə,
Səhər-səhər ləng tərpənmə, tez gətir.

Kuxnamızda çəngəl, bıçaq səslənir,
Elə bil qışqırıb: - Gəlirəm!”- deyir.
Yaxşı süfrə üçün ümid bəslənir,
Yoluna dikilib neçə göz, gətir.

Təkcə mən deyiləm, çoxdu qonaqlar,
Süfrəmizin təamını dadanlar.
Plov, dolma, bozbaş eylə o ki, var,
Qoy bol olsun, əlli gətir, yüz gətir.

Qənbərə tapşırıb, əmr eyləyiblər,
Yeməyini sıyıq eylə deyiblər.
Nə olsun ki, yasaq edib həkimlər,
Sən Allahın, bir azca da duz gətir.

## SARIDAĞIN ƏTƏYİNDƏ

Kəndimiz məskən salmışdı
Sarıdağın ətəyində.
Bəsləyirdi qoyun-quzu,
Varı, dağın ətəyində,

Sarıdağın ətəyində.
Gözəl bir guşəsi vardı,
Palıdlığı ilk bahardı,
Səmalara ucalardı,

Görürdük payız ilk qarı,
Sarıdağın ətəyində.
Hərdən-hərdən mərc tutardıq,
Atın belinə qalxardıq,

Qoşalaşıb çapışardıq.
Heyran edərdik qızları,
Sarıdağın ətəyində.
Bol olardı əzgil, armud,

Seyrək-seyrək bidər xurmud.
Dost-tanışa töhfə də tut.
Barı, dağın ətəyində,
Sarıdağın ətəyində.

Sağ tərəflər geniş düzlər,
Novlu bulaq qonaq gözlər,
Çoxdu, çoxdu şux gözəllər.
Xəlq edibdi özü Tanrı,
Sarıdağın ətəyində.

## BULUDA

Diqqətimi yönəltmişəm
Koma-koma ağ buluda.
Həsrətlə tamaşa edir
Neçə-neçə dağ, buluda.

Asta-asta sürür atın,
Qucağında kainatın.
Gəzər göyün yeddi qatın,
Desən hansı çağ, buluda.

Çəmən-çiçək bütün günü
Kəsməz heç vaxt ümüdünü.
Mələklər deyər: - Südünü
Torpaq üstə sağ, buluda.

## “SARITEL ÇAL”

***Aşıq Mehdiyə***

Mehdi bala, dəfnimə gəl,
Qəbrim üstə ”Sarıtel çal”.
Bir qədər də bənövşə tap,
Eylə dəstə, ”Sarıtel çal”.

Həsrətini çəkdim hər gün,
Dözmək mənə oldu çətin.
Bilirsən ki, dağlar üçün
Oldum xəstə, ”Sarıtel çal”.

Bir ağız da zildən oxu,
Kəlmələrdən ilmə toxu.
Şirin olsun sözün çoxu,
Asta-asta ”Sarıtel çal”.

Keçər aylar, keçər günlər,
Baharda açılar güllər.
Necə oxusa bülbüllər
O həsrətdə ”Sarıtel çal”.

Bədənim ağa bükülsün,
Üstümə torpaq tökülsün,
Bacılarım layla desin,
Sən ahəstə ”Sarıtel çal”.

## AY DUMAN

Sığınmısan dərələrin qoynuna,
Külək vursun, bir havalan, ay duman!
Bənövşə-nərgizin ləçəyi üstə
Zəhmət çəkib qoy jalədən pay, duman!

Təbiət yaradıb bu ənənəni,
Aşiqisən, çox sevirsən Vətəni.
Qucaqlamaq təpələri, sinəni
Peşən olar payız, duman, yay, duman!

Gün içində neçə yurda köçərsən,
Büllur bulaqlardan şərbət içərsən.
Dağların başını binə seçərsən,
Qənbər desin, sən də bir-bir say, duman!

## MƏNZƏRƏ

Bu dağları qucaqlayıb,
Duman yenə kəmər-kəmər.
Çöküb güllərin üstünə,
Ləzzətinən şərbət əmər.

Küləklər görər işini,
Silər otun göz yaşını.
Günəş qaldırıb başını
Şəfəq saçar səhər-səhər.

Şəfəqləri görən zaman
Yavaş-yavaş qalxar duman.
O yandan da gələr çoban,
Altında bir köhlən kəhər.

## PALID

*Yaşadığım Yevlax rayonunun Kolanı kəndinin qonşuluğunda hazırda Seyid Yusif Ağanın adını daşıyan köhnə Canavarlı kəndinə bitişik sahədə ”Mehdiqanlı palıdlığı” adlanan palıd meşəliyi var. Ora gəzməyə gələndə diqqətimi kollu-koslu, yerə yaypanmış bir cavan palıd ağacı cəlb etdi.*

Yaşın çox deyildir, diqqət eylədim,
Bəs niyə yaypansan, ay cavan palıd?!
Gedişin astadı, yerişin yavaş,
Göylərə qalxarsan sən haçan, palıd?

Dağlarda palıdı uca görmüşəm,
Həm cavan, həm də ki, qoca görmüşəm.
Doğru söyləyirəm - necə görmüşəm,
Sənə qibtə edər asiman, palıd!

Başının üstünü alar buludlar,
Qaydadı: gövdəsin şimşəklər tutar.
Tabı var, dözümü, dəyanəti var,
Verib ildırıma imtahan, palıd.

İstərəm ki, qamətini görələr,
Danəndələr qiymətini verələr.
Görün söyləmirəm ta nələr, nələr,
Qənbərin dostusan hər zaman, palıd!

## KÖLGƏN ÇOX MÜBARƏK, AY AĞCAQAYIN

Kölgən çox mübarək, ay ağcaqayın,
Meşə ətəyində, kəndin üstündə.
Bitib, pərvazlanıb bir ağcaqayın,
Hər buradan ötüb, burdan keçəndə

Tamaşa etməyə ayaq saxlayın.
Yaşı yəqin olar əsrdən artıq,
Xeyli gövdəlidi, xeyli budaqlı.
Bu gün kölgəsində biz qonaq olduq,

Elə xəlq edilib enli yarpaqlı.
Ətrafında çoxlu meyvə əkiblər,
Almalar, armudlar, gilaslar da var.
Əkənlər tər töküb, zəhmət çəkiblər,

Amma bu ağaca ayrı baxıblar.
Dibi səliqəli düzəldilibdir,
Rahat kreslolar, stullar da var.
Bu gün də bir xeyli qonaq gəlibdir,

Ətrafa səs salır dəcəl uşaqlar.
Biz də qonaq kimi gəlmişik bu gün,
Var olsun bizləri dəvət edənlər.
Artır qayğıları, artır büsbütün,

Yaxşı xidmət edir qulluq edənlər.
Ömrün bir gününü xoş yola saldıq,
Unudulmaz heç vaxt bu haqqı-sayın.
Bu istirahətdən çox razı qaldıq,
Kölgən çox mübarək, ay ağcaqayın!
Quba rayonu, Qəçreş kəndi.

## SÖYLƏYİB

Məhəmməd Quranı vəhy eləyəndə
Diriləri qandırmağa söyləyib.
Böyük Yaradanın kəlamlarını
İnsanlara andırmağa söyləyib.

Quran söylənibdi ərəb dilində,
Bir anda yayılıb Şərqin elində.
İnsana köməkdi hər əməlində,
Doğru kəsə dindirməyə söyləyib.

Deyib ki, Qurana qulaq asın siz,
Qoy zikriniz olsun gecə və gündüz.
Allah kəlamını dərk eləyin düz,
Şeytanları dondurmağa söyləyib.

Gecə-gündüz məşğul olun əməklə,
Deyib sevin ”Ya bir Allah!- deməklə”.
Məhəbbətlə, sədaqətlə, istəklə
Ürəkləri doldurmağa söyləyib.